# 200 illik erməni layihəsinin sonu

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderliyi ilə dövlətimiz regionun tarixində yeni bir səhifə açdı. 44 günlük Vətən müharibəsində qazandığımız parlaq Zəfəri və bu qələbənin bölgəmizdə yaratdığı yeni reallığı dövlətimizin sentyabrın 20-də Qarabağdakı separatçılara qarşı ildırım sürəti ilə həyata keçirdiyi antiterror tədbirləri tamamladı.*

Azərbaycan dövlətinin gücü qarşısında duruş gətirə bilməyən separatçılar ağ bayraq qaldırıb silahı yerə qoymağa, dövlətimizin irəli sürdüyü şərtlərlə razılaşmağa məcbur oldular. Xankəndidəki separatçı rejim buraxıldı, Ermənistanın Qarabağdakı silahlı birləşmələri tamamilə tərk-silah edildi. Qarabağ bölgəsində Azərbaycan dövlətinin tam suverenliyi bərpa olundu. Uzun illər hərbi xuntaya rəhbərlik edənlər, mülki əhalini öz girovluqlarında saxlayanlar, Azərbaycana qarşı dövləti cinayətlər törədənlər qandallanaraq əməllərinə görə ədalət mühakiməsi qarşısında cavab vermək üçün Bakıya gətirildilər.

44 günlük Vətən müharibəsindən ötən iki ildə baş verənləri, antiterror tədbirləri ərəfəsində və tədbirlərindən sonra cərəyan edən prosesləri nəzərdən keçirdikcə bütün həqiqətlər öz yerini tutur. Mənzərə tam aydınlaşır və Azərbaycanın əldə etdiyi tarixi nailiyyət ayrı-ayrı epizodlarla ilə deyil, tam şəkildə, bütün əzəməti ilə göz önündə canlanır. Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin nə qədər böyük bir tarixi missiyanı uğurla yerinə yetirdiyini görürük.

## "Böyük Ermənistan" oyunu darmadağın edildi

Azərbaycanın bu nailiyyəti yalnız ölkənin bəlli bir hissəsində baş qaldırmış separatçılara qarşı tədbirlərdə əldə edilmiş uğur deyil. Bu qələbə qonşu dövlətlə regional münaqişədə qazanılmış zəfər də deyil. Bu, böyük dövlətlərin birbaşa müəllifliyi ilə, onların havadarlığı əsasında 200 ildən bəri davam və inkişaf etdirilən, genişləndirilən layihənin darmadağın edilməsidir. Dünya güclərinin ermənilərdən istifadə edərək əsrlər əvvəldən regionda biz azərbaycanlıların canı-qanı bahasına bir-birinə qarşı oynadıqları "böyük Ermənistan" oyununun pozulmasıdır. Azərbaycan Prezidenti İlham Əliyev bu 200 illik layihəni fiaskoya uğratdı. Cənubi Qafqaz regionunun, bu torpaqlarda yaşayan, yaşayacaq insanların gələcəyini bu qanlı oyunun təhlükələrindən xilas etdi. Əsrlər boyu sürən toqquşmalardan, insan faciələrindən, qandan-qadadan, nəhayət ki, qurtuluşa doğru qapı açdı.

Azərbaycan Prezidentinin yaratdığı yeni reallıqdan yaşadığımız coğrafiyada əbədi sülhə, əməkdaşlığa, dayanıqlı inkişafa doğru aydın yol görünür. Məkrli qüvvələrin 200 illik "böyük Ermənistan" layihəsini aradan qaldıran dövlətimiz bu reallıqdakı əməkdaşlıq inkişaf yolunu da qoruyub saxlamaq, davam etdirmək, eyni səmimi niyyətləri paylaşan hər kəsi Cənubi Qafqazın gələcəyi ilə bağlı vahid amallar ətrafında bir araya gətirmək əzmindədir. Dövlət rəhbərimiz tarixi missiyanı davam etdirir və bir zamanlar Cümhuriyyət qurucularımızın da can atdıqları, lakin tarixin gərdişindən, erməni layihəsi müəlliflərinin məkrli planlarından müyəssər ola bilmədikləri Qafqaz Evi ideyasının reallaşmasından ötrü bütün imkanlardan istifadə edilməsinə çalışır. Yaranmış yeni reallıqların belə bir ideyanı həyata keçirmək, Cənubi Qafqazda əbədi sülhü, əməkdaşlığı, qarşılıqlı maraqlara əsaslanan birgə fəaliyyəti təmin etmək üçün nə qədər böyük fürsət olduğunu dövlət rəhbərimizin bu günlərdə Gürcüstana rəsmi səfərində, burada verilən bəyanatlarda, bölgədə yaşayan insanlara və ümumən dünyaya çağırışlarda da hər birimiz izlədik. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi təkcə xalqımızın şansı deyil, regionda belə güclü, qətiyyətli bir liderin fəaliyyəti, böyük gələcəyə, strateji hədəflərə yönəlmiş addımları ümumən Cənubi Qafqaz insanları üçün tarixin böyük bir töhfəsidir.

Antiterror əməliyyatının nəticələri ilə, separatçıların xəstə miflərlə zəhərlənmiş başının əzilməsi ilə, bu əməliyyatdan sonra Qarabağdakı quldurların tərk-silah edilərək, silahlarını təhvil verərək 30 il ərzində torpaqlarımızda qazdıqları gizli yuvalardan birdəfəlik çəkilib getmələri ilə yeni tarix başlanır. Hər səhifəsində insan faciələri, göz yaşları, itkilər, ağrı-acılar, məyusluqlar olan, böyük bir nəslin ömrünün itirilmiş illərinin əzablı xatirələri yazılmış köhnə dəftər qapandı.

## Bölgəmizdə insanlar rahat nəfəs alacaqlar

Azərbaycan Prezidentinin antiterror tədbirləri uğurla başa çatdırıldıqdan sonra xalqımıza 20 sentyabr 2023-cü il tarixli müraciətində də bəyan etdiyi kimi, bu, Cənubi Qafqazda yeni reallıq, uzunmüddətli sülh yaradacaq. Bunun üçün Ermənistan tərəfinin revanşist fikirlərlə yaşamadığına əmin olmalıyıq, onlar isə əmin olmalıdırlar ki, Azərbaycanın onların torpağında gözü yoxdur. Azərbaycan bütün ölkələrin beynəlxalq hüquq normaları ilə təsbit olunmuş ərazi bütövlüyünü tanıdığını hər zaman bəyan edib. İndi Cənubi Qafqaz dövlətlərinin kənar təsirlərdən uzaq duraraq, bir-birinin ərazi bütövlüyünə, dövlətçilik dəyərlərinə hörmətlə yanaşaraq, həm də inanaraq və gələcəyə baxaraq bölgədə əbədi sülh və inkişaf üçün birgə çalışması vaxtıdır. Qeyri-adekvat davranışları, Ermənistana dəstək bəyanatları, Azərbaycana qarşı ikili standartları, riyakar yanaşmaları ilə erməniləri daha da başdan çıxaran, onlardan alver predmeti kimi istifadə edən, bulanıq suda balıq tutub pul qazanan, dar məqamda isə ermənilərin yanında durmağa da təpərləri çatmayan dırnaqarası erməni cəfakeşləri də artıq regiondan əl çəkməlidirlər. Bu torpaqlardan uzaq durmalıdırlar. Cənubi Qafqaz artıq rahat nəfəs almalıdır.

200 illik erməni layihəsini yenə davam etdirmək istəyənlərin, buna cəhd göstərənlərin nə qədər riyakar xislətə malik olduqlarına artıq təəccüb hissi də itir. Bir anlıq təsəvvür edək ki, dünyanın ən güclü, ən demokratik, ən ədalətli dövləti adına iddialı bir ölkəyə rəhbərlik etmək istəyən, bunun üçün namizədlik fəaliyyətinə başlayan biri erməni hərbi canilərinin 44 günlük Vətən müharibəsi vaxtı Gəncəyə, Bərdəyə raket hücumunu, cəbhə xəttindən yüz kilometrlərlə kənarda yüzlərlə mülki sakinimizin həyatına son qoymuş cinayətini Azərbaycanın törətdiyi akt kimi efirdən təqdim edir. Yaxud uzun illər ATƏT-in Minsk qrupunun üzvü kimi, guya, münaqişənin həllinə çalışan, guya, regiona sülh gətirməyə can atan Fransa revanşist qüvvələrin dirilib bölgəmizi yenidən qan çanağına döndərmələri üçün Ermənistana silah ötürür. Əfsus ki, bütün bunlar sadəcə absurd təsəvvür deyil, şahidi olduğumuz reallıqlardır. Belə reallıqları izlədikcə Azərbaycan dövlətinin nə qədər qorxulu, təhlükəli qüvvələrə qalib gəldiyini görür və bundan qürurlanırıq.

Onlar öz məkrli oyunlarını, əxlaqsız alverlərini daha buralarda qurmamalıdırlar. Onda davamlı münaqişələrdən, qan-qadadan, gözlənilməzliklərdən cana doymuş insanlar rahatlıq tapacaqlar. Cənubi Qafqaz sülh və inkişaf cənnətinə çevriləcək. Azərbaycan regionun lider dövləti kimi bunu etmək gücündə, imkanındadır.

"Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!" - deyə dövlətimizin başçısı bildirmişdir.

## Qandallanmış separatçılar

Azərbaycan Prezidentinin bu kəlmələri təxminən 200 il davam edən ssenariyə, uzun illər ərzində müəyyən dairələrə xeyli dividendlər qazandırmış məkrli oyunlara qoyulan qətiyyətli nidadır. Dövlətimizin rəhbəri İlham Əliyevin Vətən müharibəsi ərəfəsində səsləndirdiyi "Qarabağ Azərbaycandır" kəlmələrindən sonra bu mesaj da əsrlər əvvəl başlanmış "böyük Ermənistan" oyununu yenə də davam etdirmək niyyətində olanlara, bu iki əsr ərzində on minlərlə günahsız insanın ömrünə son qoymuş erməni layihəsini davam etdirməyə can atanlara qətiyyətli xəbərdarlıqdır. Azərbaycan bu layihəyə artıq son qoyaraq onu tarixin arxivinə göndərdi. Bundan sonra heç zaman kiminsə onu diriltməsinə imkan verməyəcək.

Azərbaycanın bu tarixi uğuru həm ölkəmizin, həm ümumən regionumuzun gələcək inkişafı və tərəqqisi baxımından çox mühüm strateji perspektivlər müəyyənləşdirir. Dövlətimiz cəmi bir gün çəkən antiterror tədbirləri ilə uzun illərdən bəri Qarabağdakı erməniləri girovluqda saxlayan, onlardan istifadə edərək maddi sərvətlər qazanan kriminal qruplaşmanın, hərbi xuntanın əsarətindən azad etdi. Bu əməliyyatın nəticələri ilə sülh proseslərini yaxınlaşdırdı. Sülhə doğru yolu müxtəlif təxribatlarla qapamağa çalışan kriminal ünsürlərin də, məkrli məqsədlərlə onlara havadarlıq edən xarici dairələrin də əl-qolunu bağladı. Azərbaycanı bölüb parçalamaq, türk dünyasının birliyini əngəlləmək üçün torpaqlarımızda yerləşdirilmiş terror yuvası birdəfəlik dağıldı.

Eyni zamanda Xankəndidəki separatçı rejimin liderlərindən olmuş Ruben Vardanyanın, Arkadi Qukasyanın, Bako Saakyanın, Arayik Harutyunyanın, David İşxanyanın, David Babayanın qandallanaraq Bakıya gətirilməsi, bir zamanlar Azərbaycan dövlətinə barmaq silkələyən bu şəxslərin indiki rəzil vəziyyəti göstərir ki, regionumuzda sülhə, təhlükəsizliyə qarşı əməllər törədənlər, insan faciələrinə, itkilərə bais olanlar, başqalarının əlində alət kimi istifadə edilməyə can-başla razılıq verənlər heç bir halda cəzadan qaçıb qurtula bilməyəcəklər. Azərbaycan dövləti onları harada olurlarsa olsunlar tapıb layiq olduqları cəzaya çatdırmaq iqtidarındadır.

Azərbaycan dövləti Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra daha da güclənmiş ordumuzun qüdrətini, peşəkarlığını, yüksək döyüş qabiliyyətini, ruhunu sərgilədi. Əməliyyat zamanı yüksək dəqiqliklə, innovativ silahlarla yalnız hərbi obyektlərin sıradan çıxarılması, heç bir mülki şəxsin, dinc insanın əməliyyatlardan zərər çəkməməsi də bu möhtəşəm tarixin hər zaman rəğbətlə xatırlanmalı olan məqamlarıdır.

Bunu bacarmaq o qədər də asan deyildi. Çünki hərbi ekspert rəylərinə görə, son saatlarda terrorçular geri çəkilərək dinc insanların yaşadığı ərazilərə sığınmaq istəyirdilər. Bu isə mülki şəxslərin də həyatına müəyyən təhlükələr yaradırdı. Amma Azərbaycan dövləti terrorçu-separatçıları vaxtında müəyyənləşdirib lazımi şəkildə tərk-silah etməklə yanaşı, mülki əhalinin də həyatını qorudu. Onların ziyan çəkməməsi üçün bütün vasitələrdən, imkanlardan istifadə etdi. Eyni zamanda antiterror tədbirləri və nəticələri dinc sakinlərin də terrorçuların uzun illərdir davam edən əməllərindən artıq cana doyduqlarını, onlara dəstək vermədiklərini göstərdi. Nəticədə əli qanlı separatçıların silahı yerə qoyub ağ bayraq qaldırmaqdan başqa ələcləri qalmadı.

## Yeni strateji dövr başlanır

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə qazanılmış bu mükəmməl nəticə, bu nəticənin yaratdığı tarixi dəyişikliklər dövlət rəhbərimizin "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" kəlmələrinin nə qədər böyük həqiqət olduğunu, eləcə də Azərbaycan Prezidentinin hər sözünə imzası qədər dəyər verdiyini bir daha sübuta yetirdi. Eyni zamanda hər birimizə növbəti dəfə öytərmiş oldu ki, strateji qərarlar, böyük hədəflərə doğru addımlar tələskənliyi, emosionallığı sevməz. Burada hər addımın öz məqamı, vədəsi var. Azərbaycan həlledici əməliyyatla prosesləri lazımi istiqamətə yönəltdi və Vətən müharibəsi ilə qazandığımız Zəfərin son mərhələsini də eyni möhtəşəmliklə başa çatdırdı. Əgər ermənilər sülh və Azərbaycanın fəal şəkildə həyata keçirdiyi reinteqrasiya proseslərinə sadiqlik göstərsələr, səmimi davransalar, bundan sonra bu torpaqlarda silahlar əbədilik susacaq. Sülhün əldə olunmasından sonrakı inkişaf prosesləri, müxtəlif tərəflərin regionda sıx əməkdaşlıq potensialı, əzəli-əbədi yurdlarımızın dirçəlişi, genişmiqyaslı bərpa-quruculuq tədbirləri, çoxmillətli ölkə olan Azərbaycanın hər kəsə yaratdığı bərabər hüquq və imkanlar proseslərin davamını ən yüksək səviyyədə tənzimləyəcək.

Azərbaycan Respublikasının Prezidenti antiterror tədbirləri uğurla başa çatdıqdan sonra xalqımıza 20 sentyabr 2023-cü il tarixli müraciətində bu möhtəşəm uğurla daxil olduğumuz yeni strateji dövrün ümumi mənzərəsini də təqdim etdi. Azərbaycan dövlətinin bütün dünyaya örnək olan çoxəsrlik milli ənənələri, xalqımızın humanizm dəyərlərinə, birgəyaşayış qaydalarına sadiqliyi bu mənzərədə öz layiqli yerini tutacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***